# NAFTALAN - MÖCÜZƏNİ HİSS ET



İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

**Ümummilli lider Heydər Əliyev**



Azərbaycanda tibbi-müalicəvi turizmin inkişafına məhz Naftalanda start verilmişdir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Naftalan indi beynəlxalq turizm mərkəzinə çevrilib.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**










## ÖN SÖZ

Diqqətinizə təqdim olunan bu kitab dünyada nadir və yeganə olan, unikal müalicəvi təsirə malik, uzun illər ərzində sağalmaz hesab olunan bir çox xəstəliklərə əlac olmuş, regionu ölkədə və bütün dünyada məşhurlaşdıran müalicəvi Naftalan neftinə və turizmin məkanı Naftalan şəhərinə həsr olunmuşdur. Kitab Naftalanın keçmişinə, bu gününə, hətta gələcəyinə ayna tutmaqla bərabər, şəhərin keçdiyi tarixi yolun işıqlandırılması baxımından əhəmiyyətli bir vəsaitdir.

Dolğunluğu, faktlarının zənginliyi, məlumatlarının dəqiqliyi ilə kitab bu sahəyə həsr olunmuş digər kitablardan əhəmiyyətli dərəcədə fərqlənir. Əsas diqqət isə Naftalanın Beynəlxalq Turizm Mərkəzi kimi dünya standartlarına cavab verməsinin təbliğinə yönəldilmişdir.

Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. Ondan kurort və turizm məkanı olan Naftalan şəhərinin tarixini, inkişaf mərhələlərini və Naftalan neftinin müalicəvi xüsusiyyətlərini öyrənən tədqiqatçılar da istifadə edə bilərlər.

Naftalan şəhərinin bir turizm məkanı kimi tanınması və Naftalan neftinin özəlliklərinin öyrənilməsi baxımından dəyərli vəsait olan bu kitabın oxucular tərəfindən rəğbətlə qarşılanacağına ümid edirik.

**Azərbaycan Respublikası Naftalan Şəhər İcra Hakimiyyəti**
**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**
**Azərbaycan Turizm Bürosu**

İqtisadi rayon
Gəncə-Daşkəsən

Ərazi
3572.63 ha

Əhali
10300 nəfər

Əhalinin sıxlığı
258 nəfər/km$^2$



Nəqliyyat vasitəsi kodu
46

Telefon kodu
+99422

İndeks
AZ4600

Yaşayış məntəqələrinin sayı
1 şəhər, 2 kənd

Bələdiyyələrin sayı
2

İdarəetmə orqanı
Naftalan Şəhər İcra Hakimiyyəti

http://naftalan-ih.gov.az/
https://t.me/naftalan_ih
https://www.facebook.com/naftalan.sih
https://www.instagram.com/naftalan_sih/
https://twitter.com/NaftalanI?t=73a6MdSTMJNs7gqsQUn90A&s=09
https://www.youtube.com/channel/UC3hjtDUEsp4rqoflm4k7tWA/videos

## NAFTALAN - DÜNYADA YEGANƏ MÖCÜZƏVİ TƏSİRƏ MALİK NEFT

Naftalan müalicəvi məqsədlər üçün istifadə olunan, məhz Azərbaycana məxsus unikal neft növüdür. Həkimlər uzun illərdir ki, onu bir çox xəstəliklərin uğurla müalicəsi üçün təyin edirlər.

Naftalan nefti 70-dən artıq xəstəliyin müalicəsində istifadə oluna bilir, onların arasında sümük-əzələ, sinir sistemi, dəri, damar, ginekoloji, uroloji və digər xəstəliklər də var. Naftalanın unikal müalicəvi xüsusiyyətləri sayəsində iltihab prosesləri həll olunur, ağrılar azalır, qan dövranı və mübadilə prosesləri normallaşır.

Naftalan nefti əslində, yanmağa məruz qalmayan qətranlı, parafinsiz neftdir, tərkibində benzin və ya kerosin şəklində fraksiyalar yoxdur. Naftalan neftinin əsas fəaliyyətdə olan maddəsi naften karbohidrogenləridir ki, bu da ağrıkəsici, iltihab əleyhinə və anti-allergik xüsusiyyətlərə malikdir. Bundan başqa, naftalanda aromatik karbohidrogenlərlə yanaşı, qətran da var, karbohidrogenlərin öz tərkibi isə insan hormonlarının (androgenlər, ekstrogen və kortikos-teroidlər) dəstinə çox oxşardır. Naftalan nefti spesifik qoxusu olan qara-qonur mayedir.

Naftalan neftinin kimyəvi tərkibi:

1. Naften - 50-55%
2. Aromatik - 10-15%
3. Qətranlar - 14-15%
4. Naften turşuları - 0,5-3%
5. Kükürdlü birləşmələr - 0,3-0,7%
6. Azotlu birləşmələr - 0,3%
7. Mikroelementlər (mis, sink, manqan, bor, yod, brom və s.)



## “NAFTALAN” SÖZÜNÜN ETİMOLOGİYASI

Ehtimala görə hələ qədimdən təbii şəkildə çıxan “Naftalan” neftinin müalicəvi və xüsusi əhəmiyyətini bilən adamlar onu tuluqlara doldurub dəvə karvanı ilə müxtəlif yerlərə apararaq gəlir əldə edirmişlər. Naftalan (neft alan) adının buradan yarandığı ehtimal olunur. Naftalan neftindən müalicə məqsədi ilə istifadə olunmasına dair ilk yazılı məlumat XII əsrə aiddir.

"Naftalan" sözünün etimologiyası bu ərazidə çıxan neftlə əlaqədardır, "süzülən" və ya "axıb gedən" mənasını verən “nafta” sözündəndir. Qədim Azərbaycanda yağı bu cür adlandırırdılar.

## NAFTALAN HAQQINDA ƏFSANƏ

Naftalan neftinin möcüzəvi təsiri haqqında əfsanələr mövcuddur. Onlardan ən məşhuru Böyük İpək yolu ilə yağla dolu göllərin yanından keçən dəvə karvanı haqqındadır. Karvanbaşı asan olmayan bir qərar verərək, karvanı ləngitməmək üçün xəstə dəvəni orada buraxır. Karvan geri döndükdə isə onu heç bir xəstəlik izi olmadan, tamamilə sağlam görür. O vaxtdan karvan yağlı göllərin təsiri haqqında bütün dünyaya səs salmışdır. Bu bir əfsanədir, lakin müasir dövrdə əfsanənin reallığa çevrildiyinin canlı şahidləri də var. Onlar Naftalanda bu neftlə müalicə olunan çoxsaylı insanlardır.



## NAFTALANIN TARİXİ

Naftalanın tarixini şərti olaraq 5 mərhələyə bölmək mümkündür:

I mərhələ. Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin və İtalyan səyyahı Marko Polonun əsərlərində müalicəvi neft haqqında ilk yazılı qeydin meydana çıxdığı XII-XVIII əsrləri əhatə edir. Marko Polo 1264-cü ildə Azərbaycandan keçərək Venesiyadan Çinə səyahət edərkən neftlə dolu nəhəng gölməçələri təsvir edərək, onu "dəri xəstəliklərinə qarşı kömək edən sehrli məlhəm" adlandırır. Səyahət zamanı gördüklərini və başına gələnləri "Böyük Tatarıstan" adlı traktatında qeyd etmişdir. Marko Polo yazırdı ki, indiki Naftalan ərazisində şəfalı yağ var və bu yağ dəri xəstəliklərinin müalicəsində istifadə olunur. Qədim dövrlərdə Asiyanın müxtəlif guşələrindən Azərbaycana üz tutan minlərlə insan müxtəlif xəstəliklərdən xilas olmaq üçün buradan Naftalan nefti aparır, öz vətənlərində məhz həmin neftin köməyi ilə şəfa tapırdılar.

II mərhələ. Bu tarixi dövrü Yeger dövrü adlandırmaq olar. Bu dövr XIX əsrin sonlarını XX əsrin əvvəlini əhatə edir. 1873-cü ildə alman mühəndisi E.İ.Yeger neftçıxarma məqsədilə Naftalanda torpaq sahəsi əldə etmiş və ilk qazma quyusunu qazmışdır. İflasa uğradığını düşünən Yegeri təəccübləndirən bu neftin yanma qabiliyyətinin olmaması idi. Amma ona müşahidəçiliyi kömək etdi: o, yay aylarında yerli sakinlərin və qonaqların neftəbənzər maye ilə dolu çuxurlara dalaraq müalicəvi "vannalar" qəbul etdiyinin fərqinə vardı. Bununla da sənayeçi uğursuzluğunu uğur hekayəsinə çevirə bildi. 1890-cı ildə o, naftalan məlhəmlərinin hazırlanması üçün burada kiçik bir zavod tikdi. Dərman məlhəmi istehsalı üçün tikilmiş zavod məhsullarını xaricə fəal şəkildə ixrac edən sahibini inanılmaz dərəcədə zənginləşdirdi. "Yeger məlhəmi" bir çox xəstəliklərin möcüzəvi müalicəsi kimi tövsiyə edilirdi. Naftalana artan marağı görən Yeger buradakı zavodu bağlayır və çıxarılan bütün naftalanı məlhəm istehsalı üçün Avropaya, daha dəqiq Almaniyaya göndərir. Yeger tərəfindən hazırlanmış məlhəmlər, müşahidələrinin nəticələri mövcud tibbi ədəbiyyatda dərc edilməsi üçün Avropada yerləşən müxtəlif laboratoriyalara göndərildi. Qısa müddət ərzində Yeger Avropa və Amerikadakı həkimlərin 600-ə yaxın rəyini toplamağa və Drezdendə Naftalan haqqında rəylər kitabını nəşr etdirməyə nail oldu. Bu kitab rus dilinə tərcümə edilmiş və 1904-cü ildə Tiflisdə nəşr edilmişdir. Hazırlanan krem və mazlar Almaniya vasitəsi ilə Yaponiya, ABŞ, İngiltərə və digər ölkələrə satılırdı.

Eyni zamanda o illərdə Almaniyada Naftalan neftindən dərman preparatları hazırlayan 2 səhmdar cəmiyyət: "Maqdeburq-Naftalan" və "Drezden-Naftalan" cəmiyyətləri fəaliyyət göstərirdi.

1899-cu ildə "Pharm Zeitung" jurnalı Naftalan yağının istifadəsi ilə bağlı 65 formul çap etmişdir. Naftalan yağı təkcə tibbi məqsədlər üçün deyil, həmçinin kosmetologiya sahəsində də istifadə edilirdi. 1900-cü ildə Parisin gözəllik mağazalarında Naftalan yağından hazırlanan müxtəlif preparatlardan istifadə olunurdu.







Rusiyada Naftalan nefti haqqında ilk məruzə 1898-ci ildə Qafqaz Tibb Cəmiyyətində həkim Rozenbaum tərəfindən edilmişdir. Rozenbaum naftalandan yanıqlar, kəskin və xroniki ekzema, seboreya, psoriaz, yaralar və burulmalar, revmatik ağrılar üçün istifadə edirdi. Birinci Dünya Müharibəsi illərində hər bir alman və yapon əsgərinin tibbi yardım çantasında güllə yaralarının və donmaların müalicəsi üçün naftalan məlhəmi mövcud idi. I Dünya Müharibəsinin başlaması və almanların buradan köçməsi Yeger dövrünə son qoydu.

III mərhələ. Bu tarixi dövr (1920-1991) Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə başlayır. 1926-cı ildən Naftalan neftinin fiziki, kimyəvi, geoloji, bioloji xassələrinin fundamental tədqiqi aparılır. Bu tədqiqatların nəticəsi olaraq 1935-ci ildə 25 çarpayılıq ilk mövsümi sanatoriya istifadəyə verilmiş, 1965-ci ildə inkişaf edərək 1500 çarpayılıq Ümumittifaq Sağlamlıq Kurortuna çevrilmişdir.

1938-ci ildə Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa və Təbii Amillərlə Müalicə İnstitutunda Naftalan eksperimental laboratoriyası yaradılmış və Naftalan neftinin bioloji, müalicəvi təsiri öyrənilməyə başlanılmışdır. Eləcə də 1965-ci ildə Naftalanda Elmi-Tədqiqat laboratoriyası yara-






dılmışdır. Həmin laboratoriyanın nəzdində 1969-cu ildə 12 otaqdan ibarət "Vivarium" fəaliyyətə başlayır. Burada təcrübə işlərinin aparılması üçün meymun, dovşan, siçan və itlər saxlanılırdı. Naftalan neftinin təsiri altında həmin heyvanlar üzərində aparılan təcrübədə onun komponentləri, fraksiyaları, qan fermentlərinin biokimyəvi və histokimyəvi aktivliyi, qan plazmasında sərbəst amin turşularının səviyyəsi, qanın morfologiyası və zülal spektri, daxili orqanların histomorfologiyası öyrənilirdi. Azərbaycan ETTBİ-da aparılan tədqiqatlar nəticəsində Naftalan yatağının yod-bromlu suyu kimyəvi xassələrinə görə müalicəvi yod-brom, xlorid-natriumlu submineral (20-32$^0$C) orta minerallığı olan müalicəvi sulara aid (M=5-10 q/l) olması təsdiq edilmişdir. Azərbaycanda Naftalan

neftinin öyrənilməsində akademik Y.Q.Məmmədəliyevin, professorlar T.H.Paşayevin, S.Ə.Quliyevanın, tibb elmləri doktoru T.H.Hüseynovun böyük xidmətləri olmuşdur. Sovet dövründə Naftalan neftinin xassələri, kimyəvi tərkibi öyrənilmiş, 1000-dən çox elmi-tədqiqat əsərləri nəşr edilmişdir.

II Dünya Müharibəsi dövründə Bakının evakuasiya hospitallarında Ş.Həsənovun hazırladığı "Naftomastika" preparatları güllə yaraları, travmatik artritlər, yanıqlar, donmalar zamanı istifadə edilirdi. S.M.Tağıyevin laboratoriya və kənd təsərrüfatı heyvanları üzərində apardığı təcrübələri göstərmişdir ki, Naftalan nefti heyvanlarda çoxalma funksiyalarına müsbət təsir göstərir. Alınan nəticələr öz növbəsində Naftalan neftinin tətbiqinin heyvandarlığın inkişafında və onların məhsuldarlığının (ət, yumurta) artırılmasında rolunu və elmi təcrübəvi əhəmiyyətini göstərir.

1982-ci ildə yaradılmış 2300 çarpayılıq Naftalan Kurort Birliyinin 1987-ci ildə çarpayı sayı artıq 3200-ə çatdırılmışdır. Naftalan neftinin faydalı sağlamlıq xüsusiyyətləri təsdiqləndikdən sonra sanatoriyaların aktiv tikintisinə başlanılıb. Ümumiyyətlə bu dövrdə aparılan bütün tikinti, abadlıq-quruculuq işləri Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

IV mərhələ. 1990-cı illərin əvvəlində SSRİ-nin dağılması, Ermənistanın Azərbaycana qarşı torpaq iddiası və hərbi təcavüzü nəticəsində kurorta gələnlərin sayı kəskin şəkildə azalmağa başlamışdır. Doğma torpaqlarından zorla çıxarılan qaçqın və məcburi köçkünlər Naftalanda fəaliyyət göstərən mövcud sanatoriyalarda yerləşdirilmişdir.

V mərhələ. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Naftalan şəhərinə ilk səfəri ilə yeni mərhələnin başlanmasına start verildi. Azərbaycan dövlətinin turizm sahəsində siyasəti, "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" Azərbaycan Respublikası qanununun qəbulu, "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiqi Naftalanın inkişafında keyfiyyətcə yeni istiqamətə - ardıcıl olaraq özəl müalicə mərkəzlərinin yaranmasına, göstərilən xidmətlərin daha yüksək səviyyəyə çatdırılmasına gətirib çıxardı. Naftalanda bir vaxtlar məşhur olan istirahət və müalicə mərkəzləri öz şöhrətini daha müasir formada geri qaytarır. Beləliklə, yeni hotel və müalicə mərkəzlərinin açılması, rəqabət qabiliyyətinin artırılması nəticəsində Naftalana gələn yerli və xarici turistlərin sayı ildən-ilə artır və şəhər Beynəlxalq Turizm Mərkəzinə çevirilib.

## NAFTALAN - LOĞMAN ŞƏHƏR

Naftalan kurortu rəsmən 1935-ci ildən fəaliyyət göstərir. 1957-ci illədək kurort mövsümi işləmiş, həmin ildən il boyu fəaliyyət göstərməyə başlamışdır.



Naftalan 1967-ci ilə kimi Goranboy və Yevlax rayonlarının tərkibində qəsəbə idi. Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin 48 №-li Qərarı ilə Naftalana Respublika tabeliyində şəhər statusu verilmişdir.


Azərbaycanın
xəritəsi
NAFTALANA NECƏ GETMƏK OLAR?
RUSİYA
GÜRCÜSTAN
ERMƏNİSTAN
TÜRKİYƏ
İRAN
XƏZƏR
DƏNİZİ
Balakən
Zaqatala
Qax
Şəki
Oğuz
Qəbələ
İsmayıllı
Qusar
Quba
Xaçmaz
Şamaxı
Göyçay
Mingəçevir
Qazax
Şəmkir
Gəncə
Goranboy
Gədəbəy
Daşkəsən
Göygöl
Naftalan
Suqovuşan
Tərtər
Bərdə
Kəlbəcər
Ağdam
Ağcabədi
Xankəndi
Şuşa
Laçın
Füzuli
Cəbrayıl
Qubadlı
Zəngilan
Sabirabad
Şirvan
Salyan
Biləsuvar
Neftçala
Cəlilabad
Lənkəran
Sumqayıt
Bakı
Kür çayı
Araz çayı
Sədərək
Şərur
Şahbuz
Naxçıvan
Ordubad
İşarələr:
Dəmiryol stansiyası
Hava limanı
Dəniz limanı
Sərhəd-keçid məntəqəsi
Dəmir yolu
Şose yolu

## NAFTALANA SƏFƏRİN ÜÇ YOLU

Naftalan Bakıdan 330 km qərbdə, Gəncədən 55 km şərqdə, Mingəçevirdən 45 km cənubda, Goran Dəmir yolu stansiyasından isə 18 km cənubda yerləşir.

Uyğun nəqliyyat vasitələrindən birini seçməklə sağlam istirahət ardınca Naftalana çatmaq olar.

Gəncə Beynəlxalq hava limanı şəhərdən 60 km və ya 1 saatlıq məsafədə yerləşir.

ADY (Azərbaycan Dəmir Yolları) QSC-nin Bakı-Gəncə-Bakı istiqamətində hərəkət edən sürət qatarı (3 saat) ilə Goran stansiyasında enib, 20 dəqiqəyə Naftalana çata bilərsiniz.

Şəhərin avtomobil girişləri Goranboy rayonunun Qızılhacılı və Səfikürd, Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətindəndir.

## NAFTALANIN İQLİMİ VƏ COĞRAFİ MÖVQEYİ

Naftalan Kiçik Qafqaz sıra dağlarının ətəyində, dəniz səviyyəsindən 225 metr yüksəklikdə yerləşir. Naftalan həm coğrafi baxımdan strateji nöqtədir, həm də iqtisadi baxımdan çox mühüm bir şəhərdir.

Naftalan şəhərində müalicə almaq və istirahət etmək ilboyu əlverişlidir. Burada yay isti və xoş, qış isə mülayim keçir. Havanın illik orta temperaturu 16$^{0}$C-yə çatır, yağıntının illik norması 22 mm-dir, orta illik nisbi rütubət 62% təşkil edir. Küləyin maksimal sürəti 29 m/saniyədir.

Şəhərin ekomühitinin qorunması və zənginləşdirilməsi istiqamətində son illər Şəhər İcra Hakimiyyəti tərəfindən mütəmadi olaraq ardıcıl işlər aparılır. Belə ki, hər il şəhərdə minlərlə həmişəyaşıl ağac və gül kolları, dekorativ bitkilər əkilir. Həmçinin, dünyada ən sürətlə böyüyən və havanın çirklənməsinin qarşısını alan Pavlovniya ağacları da əkilib. Şəhərdə qocaman Çinar ağacları da mövcuddur. Onu da qeyd edək ki, 60-cı illərdən Eldar şamı, Küknar, Sərv kimi həmişəyaşıl ağaclar şəhərin yaşıllığının əsas hissəsini təşkil edir. Bu da tənəffüs sistemi xəstəliklərindən əziyyət çəkənlər üçün əlverişlidir.




## NAFTALAN NEFTİ İLƏ MÜALİCƏ

Burada yerləşən hotel və müalicə mərkəzləri Naftalan vannalarında nativ neftdən istifadə etməklə müalicəni təmin edirlər. Bəzi tibbi prosedurlarda qətransız (təmizlənmiş) naftalan da istifadə olunur, bu da dərialtı hüceyrələrin selikli qişasını qıcıqlandırmır. Qətransız naftalan antibakterial, qaşınma əleyhinə və istifadəsi daha rahat neftdir. Təmizlənmiş naftalandan alınan dərmanlar müxtəlif növ xarici və daxili müalicədə tətbiq olunur. Məsələn, ekzema, psoriaz kimi xəstəliklərdə naftalan əsasında hazırlanmış dərman dəriyə sürtülür. Naftalan nefti təkcə müalicəvi vannalar şəklində deyil, həm də tamponlar şəklində, diş ətinin, boğazın və burunun selikli qişalarının yağlanmasında, həmçinin daxili iltihabı azaltmaq üçün vaginit və ya bağırsaq iltihabında tətbiq olunur. Müalicənin maksimal müddəti təqribən 15-20 gündür.





Bu müddət ərzində xəstələr tibbi mütəxəssislərin nəzarəti altında mütləq fasilələrlə 10-12 vanna qəbul edirlər. Naftalan vannaları $38^0$C temperaturda təyin edilir, bir vanna qəbulunun orta müddəti 8-10 dəqiqədir. Bu neft dayaq-hərəkət sistemi xəstəliklərinin müalicəsində çox faydalıdır. Bunun üçün xəstələrə naftalan vannaları təyin edilir: ümumi, oturaq və kamera. Bəzi hallarda sollyuks lampası ilə qızdırılan Naftalan yağlamaları həyata keçirilir.

Naftalan ilə müalicə revmatoid artrit və poliartrit (podaqra, brusellyoz, posttravmatik), deformasiya edən osteoartroz, osteoxondroz, onurğanın spondilozu və tendofasitlərdə kəskinləşmə mərhələsi olmadıqda aparılır. Lakin, ağır ürək, böyrək çatışmazlığında, varikoz, onkoloji xəstəliklərdə məsləhət görülmür.



Naftalan nefti dəri xəstəlikləri üçün əvəzolunmazdır. Psoriaz xəstələrində naftalan psorik lövhələrin təzahürlərini əhəmiyyətli dərəcədə azaldır. Naftalan terapiyanın birinci kursundan sonra xəstələrdə səpgilər azalır və müalicədən sonra bir ay ərzində psorik lövhələrin əksəriyyəti solğunlaşır. Prosedurlar zamanı ılıq neft dərinin məsamələrini genişləndirir, yağ dəriyə sovrularaq qan dövranına daxil olur. Ən çox tətbiq olunan cavanlaşdırıcı prosedurlar brom vannaları, balneoterapiya, masaj, parafin və fizioterapiyadır.

5 yaşından yuxarı uşaqlar naftalanla müalicə oluna bilərlər. Onların fizioterapiyası və vannada qalma müddəti böyüklərdən fərqlidir.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ NAFTALAN

Naftalan Kurortunun inkişafı 1970-1990-cı illərə təsadüf edir. O dövrdə respublikaya rəhbərlik etmiş, daha sonra SSRİ Nazirlər Sovetinin birinci katibi vəzifəsində işləmiş Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Naftalan Kurortu daha da inkişaf etmiş və SSRİ-də Ümumittifaq kurortu adı ilə böyük şöhrət qazanmışdır.

19 fevral 1982-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin "Naftalan Kurort şəhərini daha da inkişaf etdirmək tədbirləri haqqında" birgə qərarı olmuşdur. Məhz bu qərarın nəticəsində Naftalan kurort şəhəri kimi daha da böyümüş, maddi texniki bazası möhkəmləndirilmiş, yeni sanatoriyalar və müalicə mərkəzləri tikilmişdir. Şəhərdə 480 yerlik "Mil" və "Azərbaycan", 580 yerlik "Çinar", 800 yerlik "Goran" sanatoriyaları inşa edilmişdir.

O dövrdə ümummilli lider Heydər Əliyev şəhərin inkişafı, böyük şöhrət qazanması üçün misilsiz xidmətlər göstərib. Həmin illərdə şəhərdə müxtəlif sosial-iqtisadi təyinatlı müəssisələr tikilib istifadəyə verilmişdir. Naftalan şəhərində yeni parklar salınmış və çoxmərtəbəli yaşayış binaları tikilmişdir. Eləcə də şəhərdə məişət xidməti kombinatı, 400 yerlik kinoteatr, hava limanı, avtovağzal, 4 mərtəbəli Telekommunikasiya qovşağı və 9 mərtəbəli 108 yerlik mehmanxana binası tikilib istifadəyə verilmişdir.

1980-ci ilin sonlarında Naftalanda ildə 80 minə qədər turistə xidmət göstərirdi.



## PREZİDENT İLHAM ƏLİYEV VƏ NAFTALAN

Naftalan şəhəri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqət mərkəzində olmuşdur. Dövlət başçısı dəfələrlə Naftalana səfər etmiş və bu səfərlər zamanı verdiyi tapşırıqlara əsasən şəhərin müasir tələblərə uyğun inkişaf etməsi, dünya səviyyəli unikal şəhərə çevrilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür.

Azərbaycan Respublikası regionlarının 2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının icrası ilə əlaqədar şəhərdə fundamental və əsaslı yenidənqurma işləri aparılmışdır. Eləcə də şəhərin elektrik şəbəkəsi, qaz, su-kanalizasiya xətləri tamamilə yenilənmiş, yeni istilik-qazanxana sistemləri quraşdırılmış, bütün çoxmərtəbəli yaşayış binalarının dam örtükləri yenilənmiş, fasad hissəsi əsaslı təmir edilərək müasir işıqlandırma sistemləri ilə təmin edilmişdir.

Parklarda əsaslı təmir işləri aparılmış, çoxmənzilli yaşayış binalarının həyətlərində əhalinin asudə vaxtının səmərəli təşkili üçün istirahət guşələri yaradılmışdır.

Naftalanın hərtərəfli inkişaf planı hazırlanmış və kompleks tədbirlər görülmüşdür.






HEYDƏR
ƏLİYEV

## MÜASİR NAFTALAN

Naftalan son illər bir sıra yeniliklərə imza atıb.

Möhtərəm Prezidentimizin təşəbbüsü ilə həyata keçirilən proqramlar sayəsində Naftalan şəhəri müalicəvi turizm sektorunda ön sıralara yüksəlmişdir. Dövlət başçısının Sərəncamı ilə tikintisi davam etdirilən Suqovuşan-Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolu işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq. Bu yeni yol istifadəyə verildikdən sonra yol boyu yerləşən yaşayış məntəqələri sakinlərinin rahat gediş-gəlişi təmin ediləcək, həmçinin regionun sosial-iqtisadi inkişafına, bununla yanaşı Naftalana gələn turistlərin cənnət Qarabağımızı ziyarət etmələrinə geniş imkanlar yaradacaqdır.

## Wi-Fi

2022-ci ildə Naftalan Şəhər İcra Hakimiyyəti tərəfindən həm şəhər sakinlərinin, həm də yerli və xarici turistlərin məmnunluğunu artırmaq üçün şəhərin bütün parklarında limitsiz və sürətli optik Wi-Fi ötürücülər quraşdırılıb.





## PANDUSLAR

Şəhərin bütün prospekt və parklarında, səkilərdə hərəkət məhdudiyyəti olanların və uşaq arabalarının rahat hərəkətini təmin etmək üçün panduslar quraşdırılıb.

## DÖVLƏT STANDARTI

Naftalan Şəhər İcra Hakimiyyətinin müraciəti əsasında Naftalan nefti və ondan alınan məhsulların rəqabət qabiliyyətliliyinin artırılması məqsədilə AZS 886:2020 "Naftalan nefti nativ. Ümumi tələblər" dövlət standartının layihəsi Azərbaycan Standartlaşdırma İnstitutu tərəfindən hazırlanmış və "Naftalan nefti və ondan alınan məhsullar"ın standartlaşdırılması üzrə Texniki Komitədə (AZSTAND/TK 29) müzakirə olunaraq ilk dəfə Naftalan neftinə dövlət standartı alınmışdır.




2020-ci ilin avqust ayında qəbul olunmuş standartın tətbiqi Naftalan kurortunun ölkədə rəqabət qabiliyyətliliyinin artırılmasına təkan verəcək, yerli və xarici turistlərə göstərilən xidmət keyfiyyətinin yüksəldilməsini və tibbi turizmin inkişafını daha da stimullaşdıracaqdır.



## LİTTLE FREE LİBRARY

Əsasən Avropa və Amerika qitələrində müxtəlif yaş kateqoriyalarında böyük oxucu kütləsi qazanmış "Little Free Library" 2020-ci ildə Naftalanda oxuyucuların ixtiyarına verilibdir.

Kitabxana www.littlefreelibrary.org-un kitabxa-nalar reyestirinə düşərək #100833 nişanı altında fəaliyyət göstərir və ölkəmiz həmin saytın xəritəsində digər ölkələr sırasında yer alıb.

Mini kitabxana günün istənilən saatında ödənişsiz fəaliyyət göstərir.

Ölkəmizdə ilk dəfə "Little Free Library" kitabxanasının "I Love Naftalan" adlanan bölməsi məhz kurort şəhərimiz Naftalanda açılıbdır.




## SATICISIZ MAĞAZA

Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və "Gözəl Naftalan" Müalicə Mərkəzinin dəstəyi ilə ilk dəfə olaraq 2020-ci ildə turistlərə göstərilən xidmətin daha da yüksəldilməsi və turist məmnunluğunun artırılması məqsədilə "Naftalan 24/7" satıcısız mağaza fəaliyyətə başlayıb. Pilot layihə kimi istifadəyə verilən mağazada turistlərin daha çox ehtiyacı olan 20-dək çeşiddə tələbat malları satışa çıxarılıb. Mağazadakı məhsullar arasında Naftalan neftindən hazırlanmış diş pastaları, kremlər, yağlar, şampun, sabunlar və digər təbii tərkibli, müalicəvi əhəmiyyətli məhsullar yer alıb.

## ALTERNATİV ENERJİ

2020-ci ildən etibarən Naftalanda ilk dəfə alternativ enerji mənbələrindən istifadə olunur. Pilot layihə olaraq şəhərin "Qələbə" və "Nəriman Nərimanov" parklarında yerli və xarici istehsalçıların birgə məhsulu olan işıqlandırma sistemi quraşdırılmışdır.

Naftalan Bələdiyyəsinin binası önündə quraşdırılmış məlumat və istiqamətverici lövhələr alternativ enerji vasitəsilə işıqlanır. Yeni işıqlandırma sistemi günəş enerjisi ilə qidalanan lampa və solar batareyalarla təchiz olunub.





## NAFTALANIN İLK POÇT MARKASI

2021-ci ildə Naftalan Şəhər İcra Hakimiyyətinin müraciəti əsasında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan "Azərpoçt" MMC tərəfindən Naftalanın ilk poçt markası dövriyyəyə buraxılıb.

Marka blokunun dizaynı dünya markalar kataloquna daxil edilib, dünya filatelistlərinin də böyük maraq və sevincinə səbəb olub. Buraxılış bir markadan ibarət poçt bloku şəklində beş min tirajla Belarus Respublikasında çap olunub, marka ilə yanaşı Birinci gün zərfi də hazırlanıb.




## VELOYOL

Naftalanda 2021-ci ildə velosiped həvəskarlarının daha rahat və təhlükəsiz hərəkəti üçün ölkəmizdə ilk dəfə uzunluğu 7 km olan velosiped yolu çəkilib.







## ÖDƏNİŞSİZ TRANSFER

Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və Naftalan Müalicə və Sağlamlıq Mərkəzinin dəstəyi ilə şəhərə gələn turistlərin məmnunluğunu və onların rahat gediş-gəlişini təmin etmək məqsədi ilə 2020-ci ildən Naftalan-Goran dəmiryolu stansiyası-Naftalan istiqamətində müasir standartlara cavab verən sərnişin daşıyan nəqliyyat vasitəsi istifadəyə verilib. Turistlərin daşınması “Azərbaycan Dəmir Yollları” QSC-nin Bakı-Gəncə-Bakı istiqamətində İsveçrə istehsalı olan “Stadler” yeni sürətli sərnişin qatarının hərəkət cədvəlinə, sürət qatarının Goran stansiyasına çatma vaxtına uyğun olaraq həftənin hər günü ödənişsiz həyata keçirilməkdədir.







## NAFTALAN - İGİDLƏR DİYARI




Naftalan şəhəri həm I Qarabağ Müharibəsində, həm Aprel döyüşlərində, həm də Vətən Müharibəsində düşmənin hücumları zamanı zərər görüb. Vətən Müharibəsi zamanı Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində 30 ilə yaxın düşmən işğalı altında olan dədə-baba torpaqlarımızı azad edərək tarixi ədaləti bərpa etdi.

27 sentyabr 2020-ci il müharibənin ilk günü şəhərin Qaşaltı Qaraqoyunlu kənd sakini Elbrus Qurbanovun evinə düşən top mərmisi ikisi uşaq olmaqla, bir ailənin beş üzvünün həlak olması ilə nəticələndi. Ailənin azyaşlısı 2007-ci il təvəllüdlü Qurbanov Şəhriyar Naftalanın yeniyetmələrdən ibarət U-13 futbol komandasının üzvü idi.

Şəhriyarın faciəvi ölümü ilə əlaqədar FİFA (Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası) baş sağlığı ünvanlamış və dərindən kədərləndiklərini ifadə etmişlər.

Bir sıra yaşayış evləri, nəqliyyat vasitələri düşmən raket və mərmiləri ilə vuruldu. Şəhərin tanıtma lövhəsində mərmilərin izləri tarixi sübut olaraq saxlanılır. Vətən Müharibəsində Naftalan şəhəri 4 hərbi şəhid - Quliyev Bəhruz Firuz oğlu, Adıgözəlov Fərid İlqar oğlu, Cəfərov Elyəddin Zöhrab oğlu,





Aslanov Bəxtiyar İlqar oğlu və 5 mülki şəhid verdi. Həmçinin, müharibə dövründə qəhrəmanlıq göstərərək yaralanan, sağlamlığını itirən qazilərimiz də oldu. Ümumilikdə Naftalanın 23 hərbi və 12 mülki Şəhidi var. Hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunmuş bu təbəqəyə aid imtiyazlı şəxslərə 2020-2021-ci illərdə Naftalan Şəhər İcra Hakimiyyətinin müraciəti əsasında şəhər ərazisində ƏƏSMN tərəfindən yaşayış evləri tikilərək təhvil verildi. Həmçinin, mülki Şəhid Elbrus Qurbanovun ailəsinə həyətyanı sahəsində yeni yaşayış evi tikilmişdir.

Şəhidlərimizin xatirəsini əbədiləşdirmək məqsədi ilə şəhərdə Memorial Xatirə Kompleksi və Şəhidlər Bulaq Kompleksi tikilmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlara əsasən Naftalanda da Şəhidlik zirvəsinə ucalmış qəhrəmanlarımız, qazilərimiz və Vətən Müharibəsi iştirakçıları göstərdikləri şücaətə görə medallarla təltif olunmuşdur. Ali Baş Komandanımızın rəhbərliyi altında Rəşadətli Ordumuzun Şanlı Zəfəri Naftalanı dinc həyata qaytarmışdır.

## QARDAŞLAŞMIŞ ŞƏHƏRLƏR

Naftalanla Fransanın Leql, İtaliyanın Pozitano, Polşanın Uneyuv şəhərləri arasında əməkdaşlığa dair müvafiq sənədlər, Rusiyanın Yessentuki şəhəri arasında isə əməkdaşlıq və qardaşlaşma Sazişi imzalanmışdır.















## ŞƏHƏRİN İQTİSADİYYATI

Şəhərin iqtisadiyyatının əsasını müalicə-kurort xidməti təşkil edir. Naftalan 2016-cı ildən xərclərini öz gəlirləri hesabına təmin edən ilk 7 şəhər və rayondan biridir.

Naftalanda 3-ü beşulduzlu olmaqla, ümumilikdə 16 hotel və sağlamlıq mərkəzi fəaliyyət göstərir. Hazırki mərhələdə bir neçə sağlamlıq mərkəzinin tikintisi davam edir.

Bir gündə Naftalan 3200-dən çox turisti qəbul edə bilir, yeni tikilən müalicə mərkəzlərinin istifadəyə verilməsindən sonra bu rəqəm 3600 nəfəri keçəcəkdir. Bu gün ölkədə qonaqlama sayına görə Naftalan regionlar arasında ilk sıralarda yer alır.

Əhalinin böyük hissəsi özəl sektorda hotel və müalicə mərkəzlərində işləyir. Ümumilikdə, Naftalanda fəaliyyət göstərən müalicə-kurort müəssisələrində işləyənlərin sayı 1000 nəfərdən artıqdır.

## NAFTALAN HAVA LİMANI

Naftalan hava limanı 1977-ci ildə istismara verilmişdir.

Qarabağ Müharibəsi zamanı Ermənistan Silahlı Qüvvələri tərəfindən mütəmadi olaraq atəşə tutulan hava limanının fəaliyyəti 1997-ci ildə dayandırılmışdır.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev 2021-ci il iyulun 22-də Naftalana altıncı tarixi səfəri zamanı Hava limanı ilə tanış olub.



## MƏDƏNİ QURUCULUQ

Naftalan şəhərində mədəni tədbirlər Ulu Öndər Heydər Əliyevin siyasi irsinin gənc nəslə öyrədilməsində xüsusi əhəmiyyət daşıyan Heydər Əliyev Mərkəzində həyata keçirilir.

Şəhərdə 3 tam orta məktəb, 2 Körpələr evi-Uşaq bağçası, Uşaq Gənclər İnkişaf Mərkəzi, Peşə məktəbi, 7 illik Uşaq Musiqi Məktəbi fəaliyyət göstərir.

Şəhərin nəfis tərtibatda "Naftalan" aylıq sosial-iqtisadi, ictimai-siyasi qəzeti nəşr olunur.



naftalan

Naftalan Şəhər İcra Hakimiyyətinin orqanı
www.naftalan-ih.gov.az

№ 5-6 (469) 31 mart 2022

**Güclü Azərbaycan qadını - Mehriban xanım Əliyevanın simasında**

Dünyanın bir çox ölkələrində olduğu kimi, Azərbaycanda da 8 Mart - Beynəlxalq Qadınlar Günü qeyd edilir. Bizim qadınlar hər cür təbrikə, ən böyük sevgiyə layiqdirlər. Qadınlar cəmiyyətin çox dəyərli, əvəzedilməz nümayəndələridir. Tarixin bütün dövrlərində cəmiyyətdə qadının tutduğu mövqe mühüm məsələlərdən biri olub. Qadınlar tarix boyu xalqımızın taleyində əhəmiyyətli rol oynayıblar.

Milli dövlət quruculuğunun ən müxtəlif sahələrində böyük xidmətlər göstərən qadınlarımız, eyni zamanda, ictimai-siyasi proseslərin fəal iştirakçılarıdır. Azərbaycanda qadınlar həmişə özlərini sözün həqiqi mənasında cəmiyyətin bərabərhüquqlu üzvü kimi hiss ediblər. Bu, Ulu Öndər Heydər Əliyev siyasətinin tərkib hissəsidir.

Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub. Dünya mədəniyyəti xəzinəsinə nadir incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında da qadınlarımızın böyük rolu olub. Eyni zamanda, Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Onların bir çoxunun adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Azərbaycanın qədim tarixi qadınları həyat mənbəyi və müdriklik mücəssəməsi kimi vəsf etmək üçün zəngin tarixi material verib. Orta əsrlərdən Azərbaycan qadını gözəl ana olmaqla yanaşı, klassik poeziyanın ən gözəl nümunələrini yaradıb, at belində qılınc çalıb, dövlət idarəçiliyində öz sözünü deyib.

Bu gün ölkəmizdə dövlət qadın siyasəti, bu istiqamətdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələr ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə həyata keçirilir. Möhtərəm Prezidentimiz qadınların cəmiyyətdəki roluna və yerinə, onların dövlət idarəçiliyində təmsil olunmalarına, irəli çəkilmələrinə diqqətlə yanaşır.

Öz nəcib təşəbbüsləri və humanistliyi ilə insanlara xoşbəxtlik və sevinc bəxş edən hörmətli Mehriban xanım Əliyeva Azərbaycan dövlətinin xarici və daxili siyasətinə layiqli töhfələr verir. Mehriban xanım Əliyevanın istər ölkə daxilində istərsədə ölkə xaricində artan nüfuzunun arxasında yüksək mənəvi və işgüzar keyfiyyətləri dayanır. Birinci vitse-prezident Mehriban xanım Əliyeva həm də beynəlxalq arenada böyük nüfuz qazanan ictimai-siyasi xadimdir. Ayrı-ayrı ölkələrin dövlət və hökumət başçılarının, dünyanın məşhur siyasətçilərinin Azərbaycanın Birinci vitse-prezidenti ilə görüşlərdə ona dərin hörmət bəslədiklərini açıq-aydın görə bilərik. Bunun da ilk növbədə başlıca səbəbi odur ki, Birinci vitse-prezident Azərbaycanın qlobal əməkdaşlığın dərinləşməsində rolunu daim artırmağa səy göstərir, xalqımızın zəngin ənənələrinə əsaslanaraq Yer üzündə tolerantlıq, birgəyaşayış, sülh ideyalarının təbliğinə çalışır.

Azərbaycan qadını ictimai həyatın hər bir sahəsində fəallıq göstərir. Belə ki, Azərbaycanda qadınların üstünlük təşkil etdiyi sahələr içərisində səhiyyə, təhsil və mədəniyyət ön sıralardadır. Eləcə də, dövlət idarəetmə strukturlarında, seçkili orqanlarda, yerli özünüidarəetmə qurumlarında da qadınların təmsilçiliyi artmaqdadır.

Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının mühüm tərkib hissəsi olan qadın hüquqlarının qorunması, düzgün gender siyasətinin həyata keçirilməsi baxımından da örnək təşkil edir. Ölkəmizdə cinsindən asılı olmayaraq, hər bir vətəndaşımızın cəmiyyətin həyatında fəal iştirakına yaradılan əlverişli şərait nəticə etibarilə həm də dövlətimizin inkişafına müsbət təsir göstərməkdədir. Biz COVID-19 pandemiyası, 44 günlük Vətən müharibəsində qadınlarımızın cəsarətinə bir daha şahid olduq. Hər bir qadınımız müasir qəhrəmanlıq tarixinə yeni nümunələr gətirdi, Azərbaycan qadının igidliyi, qorxmazlığı, mübarizliyi, vətənpərvərliyi dünyada yeni qadın obrazı yaratdı. Bu bizim tarixən tanınmış qadınlarımızın yeni təcəssümüdür. Şəhid bacımız Arəstə ilə, övladının, həyat yoldaşının cənazəsini öz çiynində son mənzilə yola salan ana - bacılarımızla qürur duyuruq!

Azərbaycan qadınının qazandığı nailiyyətlər bu gün qadın fəallığı ənənələrini yaşadır, məsuliyyəti artırır, gələcək nəsillər üçün davamlı inkişafa yol açır.

**Aynurə NOVRUZOVA,**
**Naftalan şəhər sakini**



Tarix-Diyarşünaslıq muzeyi 1983-cü ildən fəaliyyət göstərir. Muzeyin fondunda beş mindən çox eksponat var. Eksponatlar nəqqaşlıq, arxeoloji, məişət və etnoqrafik əşyalardan, Naftalan şəhərinin keçmişinə dair şəkillərdən və sənədlərdən ibarətdir.

Milli adət-ənənələrimizin təbliği, əhaliyə mədəni xidmətin göstərilməsi, milli musiqi mədəniyyətimizin öyrənilməsi 2 mədəniyyət evində həyata keçirilir.

Şəhərdə 1 kitabxana fəaliyyət göstərir.

Naftalan şəhər Gənclər və İdman idarəsinin nəzdində fəaliyyət göstərən Uşaq Gənclər və İdman Məktəbində uşaq və gənclər 6 idman növü (futbol, voleybol, cüdo, yunan-roma güləşi, atletika və şahmat) ilə məşğul olurlar.





Şəhərdə "Cümə Məscidi" Dini İcması fəaliyyət göstərir.

60 çarpayılıq Naftalan Şəhər Mərkəzi Xəstəxanası möhtərəm Prezidentimiz cənab İlham Əliyevin Sərəncamına əsasən tikilib, dövlət başçısı 2018-ci ildə Naftalan Şəhər Mərkəzi Xəstəxanasının açılış mərasimində iştirak edib.






Mərkəzi Xəstəxananın nəzdində Terapiya, Pediatriya, Poliklinika, Doğum, Təcili və təxirəsalınmaz tibbi yardım şöbələri, Şüa diaqnostika kabineti, Qaşaltı Qaraqoyunlu və Qasımbəyli kənd tibb məntəqələri fəaliyyət göstərir.

# naftalan

Naftalan şəhərində əhalinin və turistlərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün 4 park mövcuddur: “Heydər Əliyev” parkı, “Səməd Vurğun” parkı, “Nəriman Nərimanov” parkı və “Qələbə” parkı. Parkların ərazisində turistlər və yerli sakinlər üçün idman trenajorları quraşdırılıb, velosiped zolağı çəkilib.











## BAYRAQ MEYDANI

Naftalanın Bayraq meydanında 65 metr hündürlükdə dalğalanan bayrağın eni 10, uzunluğu 20 metrdir. Ətraf ərazidə park salınmışdır.
Şəhərin Goranboy rayonu Səfikürd kəndi istiqamətindən olan girişində isə 2021-ci ildə salınmış Bayraq Meydanında 25 metr hündürlükdə dövlət bayrağı dalğalanır.




NAFTALANIN XƏRİTƏSİ
Sağlamlıq mərkəzləri
Turizm obyektləri
Gold Naftalan
Möcüzəli Naftalan sanatoriyası
Kapaz sanatoriyası
Qələbə parkı
Heydər Əliyev parkı
Gözəl Naftalan sanatoriyası
Sehrli Naftalan sanatoriyası
Garabagh Resort and Spa
Səməd Vurğun parkı
Chinar Hotel & SPA
Şəfa vannaları
Naftalan Müalicə və Sağlamlıq Mərkəzi
Gashalti Health Hotel
1 Cümə məscidi
2 Nizami Gəncəvi adına kitabxana
3 Tarix-Diyarşünaslıq Muzeyi
4 Məşəl Memorial Kompleksi
5 Nəriman Nərimanov parkı
6 Heydər Əliyev Mərkəzi
7 "Little Free Library" pulsuz kitabxanası
8 24/7 satıcısız mağaza
9 Bayraq Meydanı
Naftalan Turizm İnformasiya Mərkəzi
Xəstəxana
Poçt
Park
Hotel
Restoran
Stadion
Velosiped kirayəsi
Veloturlar
Velosiped zolağı
15

## NAFTALAN TURİZM İNFORMASİYA MƏRKƏZİ



Ölkəmizdə olan 6 Turizm İnformasiya Mərkəzi pavilyonundan biri Naftalanda yerləşir. Buraya gələn turistlərə Naftalan şəhəri və nefti barədə məlumatlar verilir. Mərkəzin tikintisi 2021-ci ildə başa çatdırılıb.

Yerli istehsal olan WingZ elektroskuterlər, Taxi bike MTB-01 Motorbike və elektrikli avtomobillər istifadəyə verilib. Həmçinin, velosiped kirayəsi məntəqəsi də tikilmişdir.

Naftalanda turistlərin rahat hərəkətini təmin etmək üçün şəhərin müxtəlif yerlərində azərbaycan və ingilis dillərində istiqamətverici turizm məlumat nişanları və ərazi göstərici lövhələr quraşdırılıb.

Şəhərdəki mövcud turizm məlumat lövhələri isə buraya gələn turistlərin ünvana vaxtında çatmalarına kömək edir.

Layihələr Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu tərəfindən həyata keçirilib.






## HOTEL VƏ MÜALİCƏ MƏRKƏZLƏRİ

### Chinar Hotel & Spa Naftalan 5* (2011-ci ildən fəaliyyətə başlayıb)

19 ha yaşıllıq ərazidə yerləşən hotel kompleksi ən müasir avadanlıqlarla təchiz edilmiş, peşəkar hotel personalı və tibbi heyəti olan müasir turizm kompleksidir. Hotel 353 yerlik olmaqla 170 otaqdan (Standart, Superior, Suite, Deluxe, King Suite otaqlar), Naftalan Terapiya Mərkəzi, Poliklinika, Fizioterapiya və SPA bölmələrindən ibarətdir.

Hoteldə Naftalan nefti və digər Elektro/Fizioterapiyalar ilə müalicələr: dayaq-hərəkət aparatı, sümük-əzələ sistemi, periferik sinir, periferik damar, dəri, ginekoloji, uroloji, qulaq burun boğaz xəstəliklərinin müalicəsi həyata keçirilir.





Müalicə paketinə həkim müayinəsi, laborator müayinələr, USM, Naftalan vannaları və müxtəlif növ fizioterapiya prosedurları daxildir. Əlavə olaraq lazer-terapiya, mikrodalğaterapiya, vakuum elektroterapiya, kvars, zərbə dalğa terapiya, hidrokolon-terapiya, pressoterapiya, sualtı masaj xidmətləri göstərilir.

Burada qonaqların istirahəti və rahatçılığı üçün hovuz, sauna, türk hamamı, fitnes zalı, uşaqlar üçün oyun otağı, açıq havada uşaq oyun meydançası, Firuzə və Vitamin barları, bilyard, stolüstü tennis oyunu, kinoteatr və əyləncəli/musiqili xidmətlər göstərilir.

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 1000
+99450 295 6600
info@chinarhotel.com
www.chinarhotel.az

Gashaltı Health Hotel Naftalan 5* (2011-ci ildən fəaliyyətə başlayıb)

8,5 ha ərazisi olan kompleksdə hotel binası, fitnes mərkəzi, əyləncə mərkəzi, mini stadion və 3 Villa yerləşir. Hotel 342 yerlik olmaqla 165 otaqdan (Ekonom, Standart, Junior Suit, Deluxe Suit, Premium Suit otaqlar) ibarətdir.

Burada göstərilən xidmətlərin əsasını dünyada analoqu olmayan Naftalan nefti ilə aparılan müalicələr təşkil edir. Giriş edən qonaqların aldıqları paketə həkim müayinələri, laborator müayinələr, USM, həmçinin Naftalan vannaları və müxtəlif növ fizioprosedur xidmətləri daxildir. Hoteldə zərbə dalğa terapiya, sualtı dartma, sualtı masaj, UFB terapiya, pnevmapunktura, kosmetoloji və dermatoloji olaraq saç, üz və oynaqlar üçün plazmaliftinq, mezoterapiya, pilling, xalların və papilomaların koaguliyası xidmətləri, bundan əlavə karbon vannası, 4 kameralı vanna xidmətləri mövcuddur.

Fitnes və əyləncə mərkəzində boulinq, bilyard, stolüstü tennis, kiçik uşaqların əylənməsi üçün guşə, 3D kinoteatr və canlı musiqi səhnəsi, yarımolimpik hovuz, idman zalı, türk hamamı, sauna və buxar otağı istirahəti daha da unudulmaz edir.

Futbol, voleybol, tennis və basketbol oyunları üçün ərazidəki mövcud meydançalar qonaqların vaxtının daha da aktiv keçirilməsi üçün düşünülmüşdür.





**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 3003
+99450 295 8604
info@gashalti.az
www.gashalti.az

Garabagh Resort & Spa Naftalan 5* (2014-cü ildən fəaliyyətə başlayıb)

15 ha yaxın ərazidə yerləşən hotel öz müştərilərinə müalicə, istirahət və sağlamlıq xidmətlərini təklif edir. Hotel ümumi olaraq 264 yerlik olmaqla 132 otaqdan (Club room, Deluxe room, Junior suit room, Senior Suit room otaqları) ibarətdir.

Sahəsi 2000 $m^2$-dən çox olan Entera Spa & Wellness müalicə və sağlamlıq mərkəzində möcüzəli Naftalan neftinin istifadəsi ilə aparılan prosedurların rəngarəngliyi, həmçinin stabilləşdirilmiş efir yağları və vitaminlər ilə gücləndirilmiş Naftovitdən istifadə müalicənin effektivliyini artırır.

Profilaktika ilə birlikdə əzələ və oynaqlarda iltihab və mübadilə xarakterli xroniki xəstəliklər, ginekoloji və ürək-damar xəstəlikləri, stress və yorğunluqla bağlı nevroloji narahatlıqlar, maddələr mübadiləsinin pozulmasından yaranan xəstəliklər, psoriaz, allergiya və s. bir çox bu kimi xəstəliklər müalicə olunur.







Həmçinin, burada uşaqdan böyüyə qədər hər bir kəsin maraq dairəsi nəzərə alınıb, onlar üçün istirahət guşələri yaradılıb. Qolf sahəsi, böyük tennis kortu, basketbol meydançası, açıq hovuz, türk hamamı və sair xidmətlər istirahətə gələnlərə unudulmaz anlar bağışlayır.

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 1581
+99450 254 5090
rezervation@garabaghotel.com
www.garabaghotel.com



Naftalan Mərkəzi Sanatoriyası (2021-ci ildə açılışı olub)

1 ha ərazidə yerləşən mərkəz 10 mərtəbəli, 176 yerlik olmaqla 88 otaqdan ibarətdir. Sanatoriyada poliklinika, restoran, kafe-bar, terras-restoran, fitness mərkəzi, sauna, fin və türk hamamı mövcuddur. Tibbi müayinə və müalicə üçün ginekologiya, kardiologiya, laboratoriya, hərəkət orqanlarının xəstəlikləri, dəri xəstəlikləri və USM şöbələri fəaliyyət göstərəcək. Sanatoriyada 8 vanna otağı, Naftalan terapiya, Termoterapiya, Puvaterapiya, SPA, Lazerterapiya, Fizioterapiya, Reabilitasiya, Elektroterapiya və Hidrokalon terapiya müalicə növləri mövcuddur.

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 3001
+99450 410 2525

Park Naftalan (2022-ci ildən fəaliyyətə başlayıb)

1 ha yaxın ərazidə yerləşən Müalicə Mərkəzi 2 beş mərtəbəli korpusdan və 240 yerlik olmaqla 114 otaqdan ibarətdir. Kompleks müasir standartlara cavab verən avadanlıqlarla təchiz olunmuşdur. Burada milli və avropa mətbəxinin yemək çeşidləri verilən restoran və Lobby bar mövcuddur.

Müalicə bölməsində fizioterapiya, vanna, masaj, parafin, elektrofarez, darsanval, maqnit, USM, ginekologiya, yod brom və s. xidmətlər mövcuddur. Həmçinin mərkəzdə sualtı dartma hovuzunun mövcud olması buraya gələn xəstələrin daha keyfiyyətli müalicə almalarına şərait yaradır.

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 2212
+99450 234 2458
reservation@parknaftalan.az
www.parknaftalan.az






# NAFTALAN - MÖCÜZƏNİ HİSS ET

Gold Naftalan (2021-ci ildən fəaliyyətə başlayıb)

1,5 ha ərazidə yerləşən 288 yerlik olmaqla 145 otaqdan ibarət, ən son tibbi avadanlıqlarla təchiz edilmiş müasir müalicə-istirahət kompleksdir. Kompleks özündə Poliklinika, Naftalan Terapiya Mərkəzi, Fizioterapiya və SPA bölmələrini birləşdirir.

Naftalan Terapiya Mərkəzi 21 vanna otağından ibarətdir. Vanna otaqlarından 19-u naftalan, 2-si isə aroma və mineral vannalar üçündür.

Fizioterapiya şöbəsində xəstələrin naftalan vannalarına parallel olaraq Fizioterapiya prosedurları ilə müalicəsi aparılır. Bu prosedurlara Ozonoterapiya, Elektroterapiya, Lazerterapiya, Maqnitoterapiya, Hidrokolonoterapiya, Masaj-Manipulyasiya-Traksiya, İnfraqırmızı şüalanma, parafin, xüsusi inyeksiyalar və xüsusilə iynəbatırma daxildir. SPA hissəsində klassik və skrab masaj xidmətləri göstərilir. Həmçinin mərkəzdə Himalay dağlarından gətirilmiş xüsusi daşlardan ibarət duz otağı da mövcuddur.






Poliklinika bölməsi Kardiologiya, Urologiya, Ginekologiya, Nevropatologiya, USM, Dermatologiya, Laboratoriya, LOR həkim müayinəsi, Terapevt müayinəsi, Təcili Yardım şöbələrindən ibarətdir.

Qonaqların asudə vaxtının daha səmərəli keçirilməsi üçün açıq və qapalı hovuz, mini stadion, idman qurğuları mövcuddur.

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99412 585 9666
+99450 261 3165 / +99455 261 3166
info@goldnaftalan.com
www.goldnaftalan.com

Naftalan Hotel & SPA

0,3 ha ərazidə yerləşən hotel binasında 2017-ci ildə təmir-restavrasiya işlərinə başlanılmış və 2020-ci ildə işlər yekunlaşmışdır. Hotel 10 mərtəbəli, 180 yerlik olmaqla 78 otaqdan (lyuks, suit və standart otaqları) ibarətdir.

Müasir avadanlıqlarla təchiz olunmuş binada 200 nəfərlik yeməkxana, Lobby bar, disko bar, sauna, vanna şöbəsi, müalicə otaqları və idman zalı mövcuddur.

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 2556
+99451 206 2900








## MÜALİCƏ VƏ SAĞLAMLIQ MƏRKƏZLƏRİ



- “Naftalan” Müalicə və Sağlamlıq Mərkəzi
- “Möcüzəli Naftalan” Sağlamlıq Mərkəzi
- “Sehirli Naftalan” Sağlamlıq Mərkəzi
- “Gözəl Naftalan” Sağlamlıq Mərkəzi
- “Kəpəz” Sağlamlıq Mərkəzi
- “Naftalan” Kurort Birliyi
- "Naftalan Reabilitasiya Mərkəzi" PHŞ
- “Ağ Bina” Hotel
- “Nur Naftalan” Sağlamlıq Mərkəzi

Naftalan şəhərinin müalicə və sağlamlıq mərkəzlərində dayaq-hərəkət aparatı, sümük-əzələ sistemi, periferik sinir, periferik damar, dəri, ginekoloji, uroloji, qulaq burun boğaz xəstəliklərinin müalicəsi həyata keçirilir. Naftalanla müalicə edilən xəstəliklərin spektoru ildən-ilə artır.

Mərkəzlərə müraciət edən pasiyentlər ilk növbədə hərtərəfli müayinədən (klinik və biokimyəvi laboratoriya, elektrokardioqrafiya, ultrasəslə müayinə, mütəxəssis kabinetləri) keçdikdən sonra müalicəyə başlayırlar. Həmçinin, mərkəzlər ilboyu fəaliyyət göstərir.

Müəssisələrdə göstərilən tibbi xidmətlər: Həkim qəbulu, Check-Up, Laborator müayinələr, EKQ, Naftalan vannaları, İşıq vannası, Parafinlə müalicə, Sollyuks, Masaj, Darsonvalizasiya, Amplipuls, Elektroforez, Maqnit, UVÇ, Zərbədalğa terapiya, İynəbatırma terapiya, Ozonoterapiya, Traksiya, USM, Limfodrenaj, Zəli terapiya, Hidrokolon terapiya, LOR, Uroloq, BEM (biomasaj).





“Naftalan” Müalicə və Sağlamlıq Mərkəzi
2005-ci ildən fəaliyyətə başlayıb
Otaq sayı 110 / Çarpayı sayı 394

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 2685 / +99450 649 3141
info@naftalansm.az
www.naftalansm.az



“Möcüzəli” Naftalan Sağlamlıq Mərkəzi
2008-ci ildən fəaliyyətə başlayıb
Otaq sayı 188 / Çarpayı sayı 457

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 3195 / +99450 314 3668
mocuzelinaftalan@gmail.com
www.az-naftalan.net




“Sehirli” Naftalan Sağlamlıq Mərkəzi
2009-cu ildən fəaliyyətə başlayıb
Otaq sayı 177 / Çarpayı sayı 394

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 3107 / +99451 787 9787
info@sehirlinaftalan.az
www.sehirlinaftalan.az



"Gözəl Naftalan" Sağlamlıq Mərkəzi
2016-cı ildən fəaliyyətə başlayıb
Otaq sayı 76 / Çarpayı sayı 158

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99412 585 9602
+99450 607 3130
info@gozelnaftalan.az
www.gozelnaftalan.az

"Kəpəz" Sağlamlıq Mərkəzi
2016-cı ildən fəaliyyətə başlayıb
Otaq sayı 63 / Çarpayı sayı 103

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 2857 / +99422 352 2875
+99455 270 8888
info@naftalankapaz.com
www.naftalankapaz.com





"Naftalan" Kurort Birliyi
1935-ci ildən fəaliyyətə başlayıb
Otaq sayı 25 / Çarpayı sayı 50

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99450 223 73 67
naftalankrort@mail.ru

"Naftalan Reabilitasiya Mərkəzi" PHŞ
2008-ci ildən fəaliyyətə başlayıb
Otaq sayı 12 / Çarpayı sayı 25

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 1599
+99450 672 8505
naftalan.rn@sosial.gov.az
www.sosial.gov.az







"Ağ Bina" hotel
2014-cü ildən fəaliyyətə başlayıb
Otaq sayı 16 / Çarpayı sayı 30

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 2556
+99455 843 1549

"Nur Naftalan" Sağlamlıq Mərkəzi
2022-ci ildən fəaliyyətə başlayıb
Otaq sayı 64 / Çarpayı sayı 195

**Ətraflı məlumat və rezervasiya üçün:**
+99422 352 1133
+99499 701 0105
nurnaftalan46@gmail.com
www.nurnaftalan.com



## QƏDİM NAFTALAN



2020-ci ildən başlayaraq şəhərin Qaşaltı Qaraqoyunlu kəndi ərazisində aparılan arxeoloji qazıntılar zamanı Naftalanın qədim yaşayış məskənlərindən biri olduğu müəyyən olunub. Naftalan artıq təkcə təbii sərvəti ilə deyil, həmçinin arxeoloji abidələri ilə də cəlbedici məkandır. Tədqiqatlar zamanı Qalaboynu çoxtəbəqəli yaşayış yerinin üst təbəqəsinin orta əsrlər dövrünə, alt təbəqənin isə tunc dövrünə aid olduğu arxeoloqlar tərəfindən müəyyən olunub.



Orta əsrlər dövrünə aid təbəqədə qaya daşından və qırmızı bişmiş kərpicdən tikili qalıqlarına, dulus kürəsinə, ocaq yerlərinə, təndirlərə, təsərrüfat quyularına, üzəri şirli və sadə üsulla hazırlanmış zəngin saxsı məmulatına rast gəlinib. Tunc dövrünə aid təbəqədən çiy kərpicdən inşa olunmuş tikili qalıqları və dulusçuluq məmulatları aşkar edilmişdir. Abidənin yerləşdiyi ərazi təbii-coğrafi baxımdan çox əlverişli yerdədir.

Yaşayış yerinin ətəyindən vaxtilə çay axıb. Böyük yatağa malik çaydan hazırda az da olsa su axmaqdadır. Bu yerlər eneolit dövründən başlayaraq, orta əsrlərə qədər olan 6 min illik tarixi özündə əks etdirən qəbir abidələri ilə zəngindir. Belə ki, abidənin ətrafında tunc dövrünə aid Osmantəpə, Hacallı, Tatarlı, Səfikürd kurqanları, Muncuqlutəpə ilk dəmir dövrü nekropolu, Göl yeri, eneolit və ilk tunc dövrünə aid yaşayış yeri və digər qədim dövrə aid qəbir abidələri yerləşir.

## DÜNYADA YEGANƏ ƏSA MUZEYİ

Naftalanda dünyada yeganə olan Əsa muzeyi mövcuddur. Bu muzeyin eksponatları qoltuq ağaclarıdır. Naftalan nefti ilə müalicə olunduqdan sonra sağalan pasiyentlərin qoltuq ağaclarına ehtiyacı qalmadığından öz əsalarını bu muzeydə buraxıb gedirlər. Muzey 1978-ci ildən fəaliyyət göstərir, həmçinin orada xəstələrin göndərdiyi minnətdarlıq məktubları da yer alır.





прибавилась в весе и приобрела бодрость и силу.
Многие данные мне обещают полное выздоровление в дальнейшем от этого лечения.

Мне самой не верится, что после такой продолжительной болезни я могла получить такой замечательный результат. Я себя очень хорошо чувствую и возвращаюсь на производство к труду.

Кроме того в настоящее время у меня не только болезнь прошла, но и нервы мои совершенно спокойны. Надеюсь в дальнейшем еще лучше буду себя чувствовать.
За такое чуткое внимание я благодарю государство и сотрудников курорта" Нафталан" в лице профессора ПАШАЕВА, доктора КУЛИЕВА Д. доктора ТЕРЕШИНОЙ и старшей сестры КУШКО Л. овладевших такими мощными методами лечения, избавляющих нас от таких тяжелых болезней.

15/УШ-50г. Больная СУХОДОЛОВА.

Адрес: Ст. Кировабад телефонистка
Суходолова

## NAFTALAN ŞƏHƏRİNƏ YAXIN DİGƏR TURİSTİK MƏKANLAR




### Qədim Gəncə

Azərbaycanın 2-ci şəhəri Gəncəyə gedərək Nizami Gəncəvinin məqbərəsini ziyarət etmək mümkündür. İnşası 1606-cı ilə aid edildiyi "Şah Abbas" məscidini ziyarət etməklə Azərbaycan memarlığının incilərindən biri ilə tanış olacaqsınız. Burada olarkən yaxınlıqda yerləşən Cavad xan türbəsinə də baş çəkməyi unutmayın. VIII əsrə aid tarixi memarlıq abidəsi - xalq arasında "Göy məscid" kimi tanınan "İmamzadə" dini-mədəniyyət kompleksi isə bütövlükdə ölkəmizin ən dəyərli memarlıq abidələrindən biri hesab olunur. Heydər Əliyev Park Kompleksində gəzərkən İncəsənət muzeyi, amfiteatr, süni göl, Zəfər tağı ilə tanış ola bilərsiniz. Ümumilikdə, Qafqazın ən qədim bağlarından sayılan və Gəncə xanlarının adı ilə bağlı olan "Xan bağı" da mütləq gediləsi yerlərdəndir. Ümumi sahəsi 5 ha olan park burada olan ağac növlərinin zənginliyinə görə əvəzsizdir.

Gözəl Gəncənin hər küçəsində, hər daşında bir tarix gizlənir.



### Azərbaycanın mirvarisi - Göygöl

Tarixi qədim əsrlərə dayanan Göygölə səfər etməklə əsası almanların Vürtemberq krallığından gələn icma tərəfindən qoyulan memarlıq-arxitektura izləri ilə tanış olmaq imkanınız olacaq. Keçmiş Yelenendorf şəhərində həmin dövrdə inşa edilmiş kirxalar və evlər qalmaqdadır.

Gözəlliyinə mahnılar, şeirlər qoşulan Göygöl Milli Parkında-Göygöl, Maralgöl kimi təbiət incilərinin qoynunda rahatlıq və hüzur tapacaqsınız. Göygöl həmçinin Azərbaycanda şərab sənayesinin əsasının qoyulduğu yerdir ("Göygöl Şərab"ASC). "Göygöl" şərab zavoduna baş çəkməklə zirzəmilərdəki şərabları dequstasiya edə bilərsiniz.



## Nur şəhəri - Mingəçevir

Naftalandan təxminən 40 dəqiqəlik məsafədə yerləşən Mingəçevirə səfər etməklə Kürün sahilində yerləşən Nur şəhərinin gözəlliyinə şahid ola bilərsiniz. Bura xatirənizdə xoş təəssüratlarla yadda qalacaq. Mingəçevirdə katerlə Kürün seyrinə çıxmaq, çay boyunca uzanan bulvarda gəzinti, çayda balıq tutmaq, restoranlarında ləzzətli təamları dadmaq və şəhərin küçələrini bəzəyən parkların yaşıllığı Sizi valeh edəcək.

## Qəhrəmanlar diyarı - Goranboy

Özündə Qədim Albaniya dövrünə gedib çıxan tarixi, Kürəkçay və Gülüstan müqavilələrinin izlərini və əsrarəngiz təbiət gözəlliklərini birləşdirən Goranboy rayonuna səfər etməyi unutmayın.

Tarixi Qafqaz Albaniyası dövrünə aid edilən və dövrümüzə qalıqları gəlib çatan Gülüstan qalası, 1137-ci ildə baş verən zəlzələ nəticəsində Buzluq çayının qarşısının kəsilməsi ilə yaranan Buzluq mağarası, çayın üzərindəki ikitağlı körpü görməli yerlər sırasındadır. Çar Rusiyası dövründə buraya köçürülən molokanların yaşadığı Rus Borisi kəndi, XX əsrin əvvəllərində alman ailələrinin təsərrüfatla məşğul olduğu Todan kəndi də marağınıza səbəb olacaq yerlərdəndir.






Murovdağın ətəyində yerləşən Aşağı Ağcakənd qəsəbəsi isə təmiz havası, sərin bulaqları, sıx meşələri və başı qarlı dağları ilə Sizi valeh edəcək.

## QAŞALTI NARI VƏ NAFTALAN ŞƏRABI

Qaşaltı narı Naftalan şəhərinin Qaşaltı Qaraqoyunlu kəndi ərazisində yetişdirilir. Vələs, güleyşə və qalınqabıq, iri dənəli yeni güleyşə sortları üstünlük təşkil edir.







Naftalan şərabı Qaşaltı Qaraqoyunlu kəndinin nar bağlarında yetişdirilən narlardan xüsusi texnologiya ilə hazırlanıb qablaşdırılaraq məhdud sayda "Azqranata" MMC-də istehsal olunur.

## NAFTALAN MƏTBƏXİ

Nanə, ispanaq və kərövüz kimi göyərtilərdən hazırlanan Naftalan dovğası, ətli, ağ pendirli, yaxud göyərti kətəsi Naftalana səfər zamanı mütləq dadmalı olduğunuz yerli kulinariyanın sevimli









nemətlərindəndir. Səyahət menyunuzda olmalı digər yemək - üstü quzu əti ilə, quru meyvələrlə və soğanla örtülmüş, fətirlə əhatələnmiş piroqu xatırladan Şah plovun dadı isə heç vaxt damağınızdan getməyəcək. Bu təamları dadmaq üçün şəhərdə fəaliyyət göstərən iaşə obyektlərindən tutumu çox olan “Ay ulduz” şadlıq sarayı və restoranına, “Palma” və “Səma” restoranına, “Sehrli” və “Turan” kafelərinə üz tuta bilərsiniz. Kənd təsərrüfatı məhsullarını “Yaşıl Bazar”-dan və həftənin bazar günləri isə Naftalan bazarından əldə etmək olar.

## NAFTALAN BEYNƏLXALQ TURİZM MƏRKƏZİNƏ ÇEVRİLİB

Naftalan müasir dünya standartlarına cavab verən və daha da inkişaf edən sağlamlıq və rekreasiya kurortuna çevrilib. Hər il minlərlə yerli və xarici turist müalicə və istirahət məqsədilə buraya gəlir. Müstəqillik illərində ən yüksək göstərici 2019-cu ildə qeydə alınıb - şəhərə 40 min turist gəlmişdir. Turistlərin 30 faizi dünyanın 61 ölkəsinin vətəndaşları olmuşlar. Əsasən ABŞ, Qazaxıstan, Özbəkistan, İsrail, Ukrayna, Rusiya, Belarus, Türkiyə, Səudiyyə Ərəbistanı, Küveyt, Litva, Estoniya, Bəhreyn, BƏƏ, Tacikistan, Qətər, İran, Çin, Almaniya, Gürcüstan, Qırğızıstan və Kanada vətəndaşları buradakı hotel və müalicə mərkəzlərinin xidmətlərindən istifadə edərək şəfa tapıblar.

“Expo 2020 Dubai” beynəlxalq sərgisində Azərbaycanın sağlamlıq turizminin mərkəzi sayılan və öz təbii müalicəvi nefti ilə dünyada tanınan Naftalan da yer aldı. Beynəlxalq sərgidə Naftalanı təmsil edən PMD Group-a daxil olan Garabagh Resort & Spa Naftalan, Chinar Hotel & SPA Naftalan, Gashalti Health Hotel Naftalan hotellərinin stendləri və digər vəsaitləri “Azərbaycan” pavilyonunda, Dayanıqlı İnkişaf tematik zonasında yerləşdirilmişdir.

Dünyanın müxtəlif ölkələrindən gələn ziyarətçilər ilk dəfə Naftalan neftinin nə olduğunu öyrənib və əyani olaraq onun müalicəvi effektivliyinin şahidi olublar.

Naftalan Azərbaycanın dünyaya təqdim etdiyi unikal və çox qiymətli sərvətdir.

Naftalan haqqında nə qədər eşidib oxusanız belə bu yetərli deyil. Dünyada bənzəri olmayan bu möcüzəni yaşamaq və hiss etmək üçün ona toxunmaq lazımdır.






Azərbaycan təbabətdə geniş tətbiq edilən müxtəlif təbii sərvətlərlə son dərəcə zəngin diyardır. Amma təbiətin bir fenomeni var ki, onun dünyada bənzəri yoxdur, o unikaldır.

Naftalan nefti haqqında çoxsaylı elmi araşdırmalar və bir çox xəstəliklərin müalicəsində 100 ildən çox müvəffəqiyyətlə istifadə olunması təcrübəsi onun səmərəliliyini təsdiq edib.

Bu gün Naftalan nefti tibbin bir çox sahələrində ən yaxşı və əvəzedilməz müalicə üsullarından biri sayılır. Müalicəvi neft digər kurort müalicəsi metodları və regionun əlverişli ekoloji vəziyyəti ilə vəhdət təşkil edərək 70-dən artıq xəstəliyin müalicəsinə kömək edir.

Ölkəmizdə müalicəvi turizmin təbliğində və inkişafında Naftalan kurortunun çox illik təcrübəsi mühüm əhəmiyyət kəsb edir.

Naftalan neftinin keçmişini və bu gününü sərgiləyən bu kitab dəyərli bir elmi iş olaraq qarşımızdadır. Böyük zəhmət bahasına ərsəyə gələn kitabda Naftalan şəhəri haqqında da dolğun məlumatlar öz əksini tapmışdır.

**AMEA-ın akademiki,**
**Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru,**
**Vaqif Abbasov**

Naftalan haqqında tərtib edilmiş kitab Naftalan şəhəri, Naftalan kurortunun inkişaf mərhələsi haqqında oxucuya geniş məlumat verir. Çox düzgün olaraq Naftalanın inkişafı mərhələlərə bölünmüşdür.

Naftalan müalicəsi bölümündə neftin müalicəvi xüsusiyyətləri düzgün qeyd olunmuş, tibbi terminlərdən az istifadə olunmuşdur.

Bu da kitabın geniş oxucu kütləsi tərəfindən maraqla oxunmasına zəmin yaradacaqdır.

**Naftalan Kurort Birliyinin baş həkimi,**
**Hatəm Qocayev**

## NAFTALAN - MÖCÜZƏNİ HİSS ET

Azərbaycan Respublikasının ərazisində çıxarılan Naftalan neftini doğma ölkəmizin 7 möcüzəsindən biri hesab edirik. Amma bu gün fəxrlə demək olar ki, bu qiymətli məhsul həm də dünyanın möcüzəvi məhsullarından biridir.

Qiymətli və zəngin informasiya toplusu olan kitabın yazılması Naftalan neftinin ölkəmizdə, eləcə də dünyada daha çox tanınmasına öz töhfəsini verəcəkdir. Nəfis kitabla tanış olan hər bir kəs "Möcüzəni hiss et"məyə tələsəcək!

Bu yolda əziyyət çəkən hər kəsə uğurlar diləyirik!

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi**
**Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun**
**Naftalanla müalicə bölməsinin elmi işçisi,**
**ali dərəcəli həkim terapevt,**
**Allahverdi Muradov**

Naftalan nefti təbiətin bizə bəxş etdiyi ən böyük milli sərvətimizdir. Təbiət bu möcüzəni bizə bənzərsiz bəxş etmişdir. Hər bir təbiət möcüzəsinin bu və ya digər şəkildə bənzəri vardır. Lakin Naftalan neftinin bənzəri yoxdur. Belə ki, zəngin karbohidrogen birləşmələrini özündə birləşdirən Naftalan neftinin son tədqiqatları onun tərkibində 57-yə yaxın mikroelementlərin mövcudluğunu göstərir. Bu da Naftalan neftinin 70-dən artıq xəstəliyin müalicəsinə kömək etməsinə təminat verir.

**Naftalan Müalicə və Sağlamlıq Mərkəzinin direktoru,**
**İlqar Hüseynov**

## MÜNDƏRİCAT:


| | |
|---|---|
| ÖN SÖZ | 5 |
| NAFTALAN - DÜNYADA YEGANƏ MÖCÜZƏVİ TƏSİRƏ MALİK NEFT | 7 |
| “NAFTALAN” SÖZÜNÜN ETİMOLOGİYASI | 8 |
| NAFTALAN HAQQINDA ƏFSANƏ | 8 |
| NAFTALANIN TARİXİ | 9 |
| NAFTALAN - LOĞMAN ŞƏHƏR | 12 |
| NAFTALANA SƏFƏRİN ÜÇ YOLU | 15 |
| NAFTALANIN İQLİMİ VƏ COĞRAFİ MÖVQEYİ | 15 |
| NAFTALAN NEFTİ İLƏ MÜALİCƏ | 16 |
| ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ NAFTALAN | 18 |
| PREZİDENT İLHAM ƏLİYEV VƏ NAFTALAN | 19 |
| MÜASİR NAFTALAN | 21 |
| NAFTALAN - İGİDLƏR DİYARI | 26 |
| QARDAŞLAŞMIŞ ŞƏHƏRLƏR | 27 |
| ŞƏHƏRİN İQTİSADİYYATI | 28 |
| NAFTALAN HAVA LİMANI | 28 |
| MƏDƏNİ QURUCULUQ | 29 |
| BAYRAQ MEYDANI | 33 |
| NAFTALAN TURİZM İNFORMASİYA MƏRKƏZİ | 35 |
| HOTEL VƏ MÜALİCƏ MƏRKƏZLƏRİ | 36 |
| QƏDİM NAFTALAN | 46 |
| DÜNYADA YEGANƏ ƏSA MUZEYİ | 47 |
| NAFTALAN ŞƏHƏRİNƏ YAXIN DİGƏR TURİSTİK MƏKANLAR | 48 |
| QAŞALTI NARI VƏ NAFTALAN ŞƏRABI | 50 |
| NAFTALAN MƏTBƏXİ | 51 |
| NAFTALAN BEYNƏLXALQ TURİZM MƏRKƏZİNƏ ÇEVRİLİB | 52 |
| RƏYLƏR | 53 |

| | |
|---|---|
| **Tərtibatçılar:** | K.Hüseynova<br>Ü.Əliyev<br>T.Həsənova |
| **İngilis dilinə tərcümə və redaktə:** | K.Hüseynova |
| **Rus dilinə tərcümə və redaktə:** | T.Həsənova |
| **Kompüter qrafikası:** | C.Abbasov |
| **Dizayn və tərtibat:** | C.Abbasov |
| **Tiraj:** | 500 ədəd |